BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 Humanitar elmlər seriyası 2010

# MƏSUM AZADLIĞIN GÖZ BƏBƏYİ – TAHİRƏ QÜRRƏTÜLEYN

**K.İ.QULİYEVA**
***Bakı Dövlət Universiteti***
***konulfiloloq@yahoo.com***

*Tarixi romanlar ilə ədəbiyyatımızda özünəməxsus yer tutan Əzizə Cəfərzadə "Zərrintac – Tahirə" əsəri ilə də bir daha yaradıcılıq ənənəsinə sadiq qalır. Cənubi Azərbaycanın azadlıq mübarizəsində öz cəsarəti, mükəmməl biliyi və ağılı ilə yaddaşlarda dərin iz buraxan Zərrintacı romanı üçün qəhrəman seçən yazıçı onun bütün fəaliyyət yolunu tarixi və bədii aspektdə təsvir edir. Bu məqalədə də tarixi hadisələrə bədii yanaşma təhlil olunub.*

"Roman nəsrin bütün janrları içərisində yeganə janrdır ki, getdikcə inkişaf edir, təkmilləşir, zənginləşir. Zamanla, əsrlə ən çox ayaqlaşan janr da romandır" (3, 96). Bəlkə də ona görə də daim dinamik inkişafda olan bir janr söz sahibləri üçün daha əlverişli vasitəyə çevrilir. Cəmiyyətə nüfuzu baxımından da roman daha effektiv nəticələr əldə edə bilir. Çünki böyük həcminə baxmayaraq bu janr oxucu kütləsini digər janrlardan daha çox cəlb edir. Oxucu geniş bir hadisənin təsiri altına düşüb, oradakı surətlərin taleyini düşünərək, artıq yaxşı tanıdığı obrazı özü üçün ideal seçir və ya əksinə qəhrəmanının səhvlərindən özünə nəticə çıxararaq daha çox şeylər əxz edir. Oxucuya etdiyi bu təsirin nəticəsində də cəmiyyətin əxlaqi dəyərləri kağız üzərindən real həyata keçərək dəyişir və ya əksinə! Roman real yaşamla qarşılıqlı şəkildə çox qaynayıb qarışdığına görə həyatın daha geniş, daha əhatəli obrazlaşdırılmış inikası olmaq statusunu, bax beləcə, daim inkişaf edərək əldə edir. Məhz bu ağır mövqeyinə görə ədəbi tənqid də romana qarşı xüsusilə tələbkar olur. Bayağı əsərləri, janrı gözdən salmamaq üçün, tənqid edir, yazıçı daha mükəmməl bədii nümunələr yazmağa sövq olunur. Bəzən romançılıq meylləri o qədər genişlənir ki, janrın bütün tələblərinə cavab verə bilməyən əsər axınının qarşısını almaq çətinləşir. Bu, hər bir dövrdə təkrarlanan təbii bir ədəbi prosesdir. Bu prosesin süzgəci rolunu zaman oynayır. Dəyərli bədii nümunələr zamanın süzgəcindən süzülüb digər dövrlərə keçməyə vəsiqə qazanır. Primitiv əsərlər isə çöküntü kimi keçmişdə ilişib qalır. Əsil roman müəllifləri əsərlərində qaldırdıqları problemlərlə cəmiyyətin daxilinə nüfuz edə bilir. Hətta bəzən cəmiyyətin əxlaqi dəyərlərinə təsir etməyi, onun inkişaf istiqamətini belə müəyyənləşdirməkdə əsaslı rol oynamağı bacarır. Bu da, əvvəldə də qeyd etdiyimiz kimi, romanın genişliyi, fəlsəfi əhatəliliyi, psixoloji dərinliyi və bir çox başqa səbəblərlə əlaqədardır. Bu baxımdan tarixi romanlar daha çox reallığı özündə təmərküzləşdirə bilir. Real faktlar üzərində qurulmuş hadisə oxucuya tanış təsiri bağışlayır. Amma bu tanışlıq heç də təkrar demək deyil. Mükəmməl tarixi roman oxucu üçün tanış hadisəni orijinal bir variantda təqdim edən əsər hesab edilir. Beləliklə də, oxucu tanıdığı

şəxsiyyətləri, xəbərdar olduğu hadisələri tamamilə yeni bir aspektdə görmüş olur. Bunun üçün tarixi əsər müəllifi həm çox geniş məlumatlı, həm də yüksək bədii təfəkkür sahibi olmalıdır. Yazdığı dövrün həyat tərzi ilə, iqtisadi və siyasi vəziyyəti ilə, dilin leksik, qrammatik, eyni zamanda üslubi dəyişiklikləri, fərqləri ilə, cəmiyyətin sosial durumu, dünyagörüşü ilə, və ən nəhayət, canlandırdığı şəxsiyyətin ictimai-siyasi fəaliyyətindən əlavə şəxsi həyatı ilə də tanışlıq yazıçı üçün vacib cəhətlərdir. Bütün bunlara yiyələnən istedadlı söz sahibi hər hansı tarixi hadisəni və ya şəxsiyyəti təbii, süni boyalarsız obrazlaşdıra bilər. İstər dünya ədəbiyyatında, istər Azərbaycan ədəbiyyatında tarixi roman janrını təcrübədən çıxarmış, bu sahədə uğurla qələmini sınamış yazıçılar az deyildir. Tarixi, ya da tarixin hər hansı kiçik bir parçasını canlandırmaq və obrazlaşdırmaq həvəsində olan yazıçılar siyahısında bu sahədə xüsusi təcrübəyə malik, tarixi əsərlər yazmağı özünə artıq, demək olar ki, yaradıcılıq istiqaməti seçmiş söz sahiblərindən Əzizə Cəfərzadənin də adını çəkə bilərik. Tarixi şəxsiyyətləri obrazlaşdırmaq, onları müasir dövrün dünyagörüşü prizmasından dəyərləndirmək bu müəllifin çox yüksək bacarıqla öhdəsindən gəldiyi ədəbi fəaliyyət idi. Yazıçı real şəxsiyyətləri tarixdən götürdüyü, öyrəndiyi, uzun illərin ciddi araşdırmasından sonra əldə etdiyi faktlarla obrazlaşdırırdı. Həmin ciddi elmi araşdırmaların nəticəsində bədiiləşdirdiyi, sevə-sevə canlandırdığı qəhrəmanlarından biri də Tahirə Qürrətüleyn təxəllüsü ilə tanınan Zərrintac idi. Kim idi Zərrintac? 1844 -1850-ci illər Babilər hərəkatının, xüsusilə Babi inamının (1863-cü ildən Bəhailik adlanan) görkəmli təbliğatçısı, Şərq aləmində görünməmiş cəsarəti ilə uzun illər sonra da özünə diqqəti cəlb etməyi bacaran qadın mübarizimiz!!! Rəğbət bəslədiyi bu şəxsiyyət haqqında Əzizə xanım hələ tələbə ikən materiallar toplamağa başlamış və uzun illərin araşdırması nəticəsində əldə etdiyi məlumatlarla nəhayət "Zərrintac – Tahirə" əsərini ərsəyə gətirmişdir. Məhz bunun nəticəsində də yazıçı Zərrintac obrazını elə mükəmməl işləyə bilmişdi ki, sanki illərlə tanıdığı bir doğmasının xarakterini yaratmışdı. Yəqin bu doğmalıq həmin insana bəslədiyi rəğbətdən irəli gəlirdi.

Bu romanda yazıçı mövqeyi özünü aydın biruzə verir, sanki müəllif özü buna xüsusilə səy göstərir. Tahirə Qürrətüleynə olan məhəbbəti, vurğunluğu, yaratdığı müsbət qəhrəmanına dərin rəğbəti əsərin hər məqamında özünü göstərir. Yaratdığı xarakterin timsalında o, bütün gerçəklikləri öz xəyalının məhsulu kimi ən dərəni detalları və mənəvi axtarışları ilə birlikdə mükəmməl əks etdirmişdir. Tahirə obrazı əsərin əvvəlindən axırına kimi psixoloji təlatümlər içərisində təsvir olunur. Daim mənəvi inkişafda göstərilən bu xarakter romanın sonunda axtardığı yolu tapır. Azadlıq yolu olur Zərrintac –Tahirənin yolu, ancaq və ancaq azadlıq!!! Babiliyə qoşulan Tahirə sonradan axtardığı nicatın daha üstün bir yol olduğunu anlayır və o, babilikdən uzaqlaşır, daha dərin, daha çətin və məşəqqətli mübarizə yoluna qədəm qoyur. Zərrintac anlayır ki, millətin bəlası onu dinin daxilində dinlərə bölməkdir. İstər babilik, istər şiəlik, istər digər təriqətlər olsun, hamısı xalqı parçalayır. Bu millətə isə birləşmək lazımdı, bölünmək yox, ona görə Tahirə xalqının yolunu, azadlığın yolunu birlikdə görür. Özü də bu yolun sonuna kimi sədaqətli yolçusu olur. Heç bir fiziki, mənəvi əzab onu çəkindirmir. Bu cəsarəti ilə hamıda, hətta düşmənlərində belə qibtə, həsəd doğurur. Azadlıq yolu onun ölümünə səbəb olur. Ailəsindən, övladlarından, rahat həyatından ayrı düşən bu cəsarətli qadın millətinin gələcəyi naminə, azadlığı naminə özünü unudur. Ana qəlbinə, övlad qəlbinə daş basır, ürəyini ancaq vətəni üçün, milləti üçün açır. Öz dilinə qarşı yad münasibət, daha doğrusu, haqsız münasibət bu vətən

qızının qəlbini sızladır. "...Bunu bilmirəm ki, bəs niyə türk ola-ola, türk olmağını bilə-bilə sən vətən övladına, millətin balalarına dərsi ərəb dilində verirsən, özü də həmişə türk millətinin uşaqlarıyla da, böyükləriylə də fars dilində danışırsan? Bəs, bizim öz dilimiz?" (1, 24) deyə fəryad edən Qürrətüleyn məhz belə fikirlərinə görə hakim təbəqəni narahat etməyə başlayır. Bu düşüncələr bir milləti oyatmaq üçün bayraq rolunu oynaya bilər.

Zülmün içində sızıldayan xalq Ergenekondan onu qurtaracaq xilaskar qurdu – Börtçildi gözləyirdi. Zərrintacı da çöllərə salan milləti ayıltmaq dərdi, o Börtçildi onlara vermək idi. "Artıq mənim üçün din də, əqidə də Vətən dərdidir. Vətəndir" (1, 143) deyən mübariz qadın "Şimaldan əjdaha kimi ağzını açıb gələn, od püskürən, hər davadan sonra İrandan, daha dürüstü Azərbaycandan bir parça qoparan sarı iblisi görmürsüz?" (1, 143) deyə üsyan qaldırır. Əzizə Cəfərzadə sevimli qəhrəmanının dili ilə vətənin başına gələn müsibətləri də romanında əks etdirir. Əslində bu da bir tarixdir. Azərbaycanın əsrlərlə təkrarlanan tarixi. Parçalana-parçalana bir parça qalıb Vətən. Tahirə Qürrətüleynin həyatına bu qısa səyahəti ilə müəllif bir çox siyası məsələlərə də toxunur. Bəlkə də yazıçını tez-tez tarixi romanlara müraciət etməyə sövq edən də bu Vətən təəssübüdür, məhəbbətidir. Tarixi bədiiləşdirməklə oxucusunu ayıltmaq istəyir Əzizə xanım. Tahirə Zərrintac onun növbəti silahlarından biri idi. "Dilini qoru, keçmişini bil, Vətənini qoru!!!" deyirdi yazıçı. Əsərin əsas ideya istiqaməti məhz budur.

Əsərdə süjet bütövlüyü və ardıcıllığı da özünü aydın göstərir. Amma bununla yanaşı romanın bəzi məqamlarında süjet xəttindəki pərakəndəlik də nəzərdən qaçmır. Bu daha çox ikinci dərəcəli obrazların həyatı ilə bağlı epizodlarda nəzərə çarpır. Məsələn, Ətaullah ikinci dərəcəli obraz olsa da, hadisələrin inkişafında əsas qüvvələrdən biri kimi çıxış edir. Belə mühüm bir obrazı Əzizə xanım bütün daxili sarsıntıları, psixoloji gərginliyi, həmçinin mənəvi axtarışları, ziddiyyətləri ilə işləməmişdir, beləliklə də, roman janrının ona verdiyi imkandan istifadə etməmişdir. Doğrudur, romanda Ətaullahın adı ilə bağlı hətta bir bölmə də vardır. Amma bu belə, elə mühüm obrazı bütün mürəkkəbliyi ilə tarixi aspektdə, tarixi hadisələrin fonunda, hadisələrin aparıcı qüvvəsi, Tahirənin yaxın yoldaşı, Babilər hərəkatının mühüm siması kimi aydın şəkildə təsəvvürünə imkan vermir. Halbuki, Ətaullah obrazının daha geniş, daha mükəmməl təsviri Tahirə Qürrətüleynin də həm tarixi, həm də bədii sima kimi daxili-mənəvi dünyasının açılmasında da çox əhəmiyyətli rol oynaya bilərdi. Bəlkə də yazıçı hadisələr yığınından qurtulmaq üçün ikinci dərəcəli obrazların geniş təhlilindən qaçmağa çalışmışdır. Müəllifin mövzu üçün seçdiyi janr buna imkan verirdi. Roman ümumilikdə kiçik hekayələrin vahid bir mərkəzdə birləşən toplusu hesab olunan janrdır. Yəni bütün (zahirən əlaqəsiz görünən) hadisələri əsas konfliktin ətrafında mərkəzləşdirməklə həmin hadisələr yığınından qurtulmaq olar. Amma nəyə görəsə yüksək bədii təfəkkürə, nəzəri-elmi biliklərə sahib Ə.Cəfərzadə romanının həcminə çox qənaətlə yanaşmışdır. Bu da bəzi pərakəndəliyə, anlaşılmazlıqlara və hətta natamamlıqlara səbəb olmuşdur. Nəinki obrazlar, hətta müəyyən hadisələr belə tamamlanmamış görünür. Hadisələr zahirən maraqlı, cəlbedici və təsirlidir, daha çox əhvalatların təsvirinə meyl edən yazıçı bəzən psixoloji analizləri kölgədə qoyur. Bir hadisədən digər hadisəyə keçid də yarımçıq təsiri bağışlayır. Əzizə Cəfərzadə əsərin əvvəlində Babilər hərəkatının çox əhatəli və anlaşıqlı izahını vermişdi. Bunu da maraqlı şəkildə tarixlə əlaqələndirə bilmişdir. Amma bu məqamda belə təsvirçilikdən tam

qurtulmamışdır. Bir zamanlar ədəbi tənqiddə əsərin hadisələr yığınıyla primitivləşdirilməsi, beləliklə də, zahiri epikliyə meyl etmək romanlarımızla bağlı əsas problemlərdən biri hesab olunurdu. Təsviriçilikdən yan ötə bilməsə də, əvvəldə qeyd etdiyimiz kimi, Ə.Cəfərzadə süjet xəttinin yığcamlığına diqqətlə yanaşmışdır. Bəlkə də əsərdə gözə çarpan bu natamamlıqlar sözə qənaət etmək istəyindən qaynaqlanırdı. Məsələn, Tahirənin tarixdə yerini, babiliklə əlaqələrini göstərsə də, onun babiliyi necə qəbul etməsini, sonra nəyə görə ondan uzaqlaşmasını və digər cəhətləri aydın təsvir edə bilməmişdir. Oxucu sadəcə bir epizodda anlaya bilərdi ki, Zərrintacın babilik etiqadını qəbul etməsində kiçik əmisinin rolu vardı. Bəs, necə olur ki, babiliyi qəbul və Zərrintacı buna cəlb edən əmi ailəsi qarşısında xəcil olan, namussuz ləkəsi alan öz doğma qardaşı qızının köməyinə çatmır? Tahirənin babiliyi qəbul etməsində mühüm rol oynayan əmisi əsərdə tamamən kölgədə qalır. Doğrudur, babilikdən uzaqlaşmasını Zərrintacın öz dili ilə atasıgillə söhbəti zamanı yazıçı izah edir. Burada Tahirənin düşüncələrindəki dəyişikliklərə əsas səbəb Zəncan üsyanı və xalqının ağır vəziyyəti göstərilir. Amma sevimli qəhrəmanının bu mənəvi axtarışlarını yazıçı bütün detalları ilə açıb göstərmir. Bütün bu daxili, gözə bir o qədər çarpmayan kəm-kəsirləri ilə yanaşı əsərin çoxlu dəyərli məziyyətləri də vardı. Həmin məqamları təhlil etmək üçün istərdik ki, diqqəti digər obrazlara yönəldək. Məsələn, Zərrintacın əri molla Məhəmmədin xarakteri ancaq müəyyən epizodlarda aydınlaşır. Yazıçı geniş təsvirdən yayınaraq məharətlə sadəcə Zərrintacla bağlı hadisələrin fonunda həmin obrazın bütün mənəvi ziddiyyətlərini, psixoloji təlatümlərini, daxili sarsıntılatrını mükəmməl təsvir etmişdir. Bütün bu bədii təhlillərin nəticəsində biz molla Məhəmmədi bir mömün ər kimi xarakterizə edə bilərik. Mühitin sıxışdırdığı bu insan daxili bütövlüyünün, mükəmməl təfəkkürünün, elmi və dini biliyinin məhdudluğu səbəbindən mövhumatın zəncirlərindən qurtula bilmir və qaragüruhçu təzyiqlərinə tab gətirmir, qadınının namusuna şübhə edir, hətta ölümünə belə fitva verir. İntiqam onun gözünü elə bağlayır ki, Zərrintacla sonuncu görüşündə qadının əsaslı dəlillərlə yolundan dönməməsinin səbəblərini izah edərkən belə o kifayətlənmir. Mühitin qəbul etmədiyi birini o da qəbul etmir. Cahil cəmiyyətin damğaladığı bir qadını — müqəddəs amallarla yaşayan və cəsarətlə mübarizə meydanına atılan bir qadının simasında görmək istədiyi ləkəni görərək mühakimə edir. Bütün bu cəhətləri Əzizə xanım real hadisələrin axarında təbii boyalarla təsvir etmişdir. Oxucu da tarixdən tanıdığı, sevdiyi bir şəxsiyyətin həyatının bilmədiyi bu məqamlarını ürək ağrısı ilə oxuyur, ailəsi tərəfindən rastlaşdığı haqsızlıqları təəssüflə qarşılayır. Zərrintacı dəstəkləmək, arxa durmaq əvəzinə ölümünə fitva verənlərdən də biri ilk müəllimi, doğrunu-yalnışı, haqlını-haqsızı öyrəndiyi atası Molla Saleh idi. Bu obrazı da yazıçı Qürrətüleynin ətrafında baş verən hadisələrlə əlaqəli şəkildə təhlil edir. Baxmayaraq ki, Molla Saleh də hadisələrin mərkəzində dayanmır, geniş təsvir olunmur, amma müəllif bu surətin də xarakterini mükəmməl işləmişdir. Molla Saleh qayğıkeş ata, təəssübkeş bir vətəndaş, həm də dini yaxşı bilən bir xadim, molla idi. Qızına dinin və bir çox dünyəvi elmlərin açarlarını da, ilk əvvəl, məhz o verir. Bəlkə də Tahirənin elə hərtərəfli, dərrakəli böyüməsində onun rolu xüsusilə seçilirdi. Hələ uşaq ikən verdiyi suallar Molla Salehi narahat edirdi. "Ərə gedənəcən belə suallar bu qızı hara aparıb çıxaracaq deyib dururdum, hə? Amma heyif ki, ev, oğul-uşaq, ər də bunları ona unutdura bilmədi" (1, 24). Qızının ağlı, düşüncələri, biliyi bəzən atada həsəd də doğururdu. "Fərsiz oğlunun" yerinə Tahirənin oğlan olması üçün çox şeylərindən keçərdi. Çünki zaman, mühit qadının

belə dərrakəyə sahib olmasını bağışlamırdı, qəbul etmirdi. Elə qız övladları ata-ana, qohum-qardaş üçün ləkə idi. Amma oğul belə olanda, valideyn üçün bu əsl xoşbəxtlik idi. Molla Saleh də zamanın avam, mövhumi düşüncə buxovlarından qurtula bilmir, Zərrintac kimi sədəfi özünə ar bilir, belə bir ağır "cəzaya" tab gətirmir. Canından çox sevdiyi qızına "dili əsə-əsə" ölüm fitvası verənlər siyahısına daxil olur. Bundan başqa babilik təriqətinin banisi Seyid Əliməhəmməd Babın da obrazını yaratmışdı yazıçı. Ancaq bir epizodda edam ərəfəsində və edam zamanı canlandırdığı Babı Ə.Cəfərzadə bitkin bir obraz kimi verə bilmişdi. Həmin hadisənin fonunda biz Seyid Əliməhəmmədin bütün həyatını həsr etdiyi mübarizəyə olan bağlılığını, eyni zamanda bu yolda əzmkarlığını, qorxmazlığını, inanılmaz cəsarətini, öz müridlərinə qarşı qayğıkeşliyini, təəssübkeşliyini görə bilərik. Babı mübarizəsi üçün hələ dəyərli olan, onunla birlikdə ölümə məhkum edilmiş yoldaşlarını zahirdə ondan üz çevirməyə çağırır. Seyid Əhməd, Seyid Hüseyn və Seyid Həsən zahirdə babilikdən imtina edib Bab həzrətlərinə lənət oxuyurlar. Məhz yazıçı bu obrazlarla bağlı məqamları da kölgədə qoyur, onların sonrakı taleləri, xarakterlərindəki qaranlıq məqamlar oxucu üçün aydınlaşmamış qalır. Bu müridlər doğrudanmı ancaq Seyid Əliməhəmməd onlara buyurduğu üçün bu yoldan imtina edirlər, yoxsa qəlblərindəki azca da olsa ölüm qorxusu həmin şəxsləri bu addıma itələyir? Edamdan canlarını qurtaran Seyid Əhməd, Seyid Hüseyn və Seyid Həsənin babliyin sonrakı inkişafındakı rolları naməlum qalır. Amma yazıçı Seyid Əliməhəmmədlə birgə edam olunan, öz cəsarəti ilə hamının qəlbində dərin rəğbət və qibtə doğuran Hacı Məhəmmədəlinin mükəmməl xarakterini yarada bilmişdi. Ölüm qarşısında göstərdiyi cəsarət, öz əqidəsinə olan dərin bağlılığı, Baba qarşı dönməz sədaqəti bu obrazla qısa tanışlıq zamanı aydınlaşır. Yazıçı bu insanın qəlbindəki məhəbbətin böyüklüyünü sadəcə bir məqamla bitkin təsvir edə bilmişdi. Hər ikisi, həm Seyid Əliməhəmməd, həm də Hacı Məhəmmədəli edam kürsüsü qarşısında dayananda Babın sədaqətli müridi üçün "indi Aləmlərin mərkəzi bir nöqtədi və o nöqtədə Bab dayanmışdı. Ətrafına, oğullarına belə baxmadan Hacı Məhəmmədəli, mürşidinin başına dolandıqca "Ey babül-həqiqət!..Ey Sahibəz-zaman!... Ey bəqiyyətüllah, sənə fəda olum!" deyirdi (1, 64) və o müdhiş an ancaq bir şey istəyir: "— Əvvəl məni, sonra Bəqiyyətüllahı qətl edin... Görməyim, bu dağ sinəmə çəkilməsin" (1, 64).

Obrazları üçün seçdiyi sadə danışıq üslubunu, anlaşıqlı ifadə tərzlərini Əzizə Cəfərzadə dövrü tam araşdıraraq həmin zamanın dil imkanlarına uyğun şəkildə vermişdir. Məhz buna görə də, əsər boyu biz XIX əsr İran həyatının mübaliğəsiz, təbii və canlı təsvirini görə bilərik, sanki bir anlıq həmin dövrə səyahət etmiş kimi. Obrazların geyimlərinin, davranışlarının təsviri də yazıçının həmin dövrü necə mükəmməl mənimsədiyinin göstəricisidir. Bütün bu kimi xüsusiyyətlər bədii əsərin dəyərini müəyyənləşdirən məqamlardır. Roman Əzizə Cəfərzadə yaradıcılığının bir çox ümumi cəhətlərini özündə birləşdirməklə yanaşı, fərdi cəhətləri ilə də nəinki ədəbi mühitdə, eyni zamanda geniş oxucu kütləsində də maraq doğurur. Yazıçı – alim Əzizə Cəfərzadə qoyduğu bəşəri-dünyəvi, milli problemlərlə bütün zamanlar üçün müasirliyi (ənənədən təcrid olunmayan, ənənəyə söykənən, ondan qaynaqlanan bir müasirliyi), aktuallığı bütün əsərlərinə möhürləyə bilmişdir. Necə ki "Zərrintac – Tahirə" bu gün də, sabah da azadlığın rəmzi kimi, türklük ideyalarının tərənnümçüsü kimi dəyərləndirilir və dəyərləndiriləcək. Bu xüsusiyyət nəinki təkcə bu əsərə, Ə.Cəfərzadənin bütün yaradıcılığına xasdır. Tarixi bədii sözlə dəyərləndirməyi, yaşatmağı

və onu yalnışı ilə, doğrusu ilə göstərməyi bacaran Ə.Cəfərzadə kimi yazıçı ordusu olduqca nəinki Azərbaycanın ədəbiyyatı, eyni zamanda tarixi də həmişə yaşayacaq.

### ƏDƏBİYYAT


1. Cəfərzadə Əzizə. Zərrintac - Tahirə, Bakı: Göytürk, 1996, 206 s.
2. Mir Cəlal, Pənah Xəlilov. Ədəbiyyatşünaslığın əsasları, Bakı: Maarif, 1972, 279 s.
3. Yusifli Vaqif. Roman haqqında mülahizələr // Azərbaycan jurnalı, 1982, №5, s.75-86.


### ОЧИ НЕВИННОЙ НЕЗАВИСИМОСТИ – ТАГИРА ГУРРАТУЛЕЙН


**К.И.КУЛИЕВА**



**РЕЗЮМЕ**

А.Джафарзаде является одним из известных и заметных представителей современной азербайджанской литературы. Как прозаик она писала и исторические произведения. «Зарринтадж – Тагира» является одним из исторических произведений, в котором рассказывается о трудном периоде азербайджанского народа. Зарринтадж - реально исторический образ. И она реально отображает свой народ. Также в романе рассказывается о трудной борьбе Зарринтаджа.


### THE PUPIL OF INNOCENT INDEPENDENCE – TAHIRA GURRATULEYN


**K.İ.GULIYEVA**



**SUMMARY**

Aziza Jafarzade is one of the famous and remarkable representatives of modern Azerbaijan prose. As a proser she wrote historical works as well. "Zarrintaj – Tahira" is one of the historical works which depicts difficult, hard period of the Azerbaijani people. Zarrintaj is a real historical character who devoted herself to her motherland. The article elucidates her struggle and literary approach to historical events.